# ŞUŞA ŞƏHƏRİNİN TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİ VƏ ONLARIN İŞĞALDAN SONRAKI VƏZİYYƏTİ

**Nəzərov R.O.**

*Bakı Dövlət Universiteti*
*rovsen5599@mail.com*

Şuşa şəhəri 1992-ci il may ayının 8-də erməni birləşmələri tərəfindən işğal edilmişdir. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Müzeyi, Azərbaycan Tarix Müzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmışdır. 1881-ci ildə inşa edilmiş Şuşa realnı məktəbi də 1992-ci il işğalından sonra yerlə yeksan edilmildir.

İkinci Qarabağ Müharibəsi zamanı 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edilmişdir. İşğaldan azad olunandan sonra isə şəhərdə yenidənqurma və bərpa işləri həyata keçirilməyə başlayıb. Şuşa şəhərində ilkin olaraq infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlakın mövcud vəziyyətinin ilkin qiymətləndirilməsi və inventarlaşdırılması həyata keçirilib. İnfrastrukturun, tikililərin mövcud vəziyyəti, yeni mənzil fondu, binaların dayanıqlığı araşdırılıb, tarix və mədəniyyət abidələrinin öyrənilməsi, onların vəziyyətinin təyin edilməsi istiqamətində araşdırmalar aparılıb.

Şəhərə yeni kommunikasiya xətləri çəkilir, küçələr təmir olunur. Dövlət başçısının Şuşaya ilk səfəri zamanı şəhərin bərpası istiqamətində birinci addım kimi Natəvanın, Üzeyir bəyin və Bülbülün büstləri əvvəlki yerlərinə qoyulub. Büstlərin olduğu ərazidə bərpa işləri gedir, ətraf abadlaşdırılır. Vaqifin məqbərəsi artıq əvvəlki görkəmi saxlanılmaqla bərpa edilib. 1992-ci ildə Şuşanın işğalından sonra şəhərdəki digər abidələr kimi büst də vandalizmə məruz qalaraq dağıdılmışdı. Şuşanın məşhur ünvanlarından olan Bülbülün ev-muzeyi də bir neçə ay ərzində bərpa edilib. Rəsm Qalereyası və Xalçaçılıq Qalereyası da bərpa olunub istifadəvə verilmiş tarixi binalar sırasındadır. 1980-ci ilə tikilən "Qarabağ" oteli də bərpa olunaraq, yenidən istifadəyə verilmişdir. Mehmandarovların malikanə kompleksi də bərpa edilir.

Füzulidən çəkilmiş 110 kilovatlıq "Şuşa" yarımstansiyası, "Xarı Bülbül" oteli, müasir və milli memarlıq üslubunda inşa olunacaq və "Zəfər Yolu"-nun üzərində yerləşəcək 5 ulduzlu "Otel və Konfrans Mərkəzi" kimi yeni

binalardan əlavə, ümumiyyətlə Azərbaycan üçün olan yeniliklər də tətbiq olunacaq. "Yaşıl dəhlizlər" Şuşa şəhərində həm yaşıl zolaqların yaradılması üçün, həm də ümumiyyətlə, sənaye və kənd təsərrüfatı zonalarını bir-birindən ayırır. Şuşanın ümumi sahəsinin üçdə birini yaşıllıqlar təşkil edəcək.

Şuşanın demoqrafiyasına gəlincə, burada şəhərin özünəməxsus memarlıq mühitini qorumaq üçün hündürmərtəbəli binalar tikilməyəcək. Yaşayış təyinatlı binalar 2-5 mərtəbəli olacaq. Şuşa 6 məhəllədən ibarət olacaq, yeni massivində 2000-dən çox adam məskunlaşacaq. Növbəti 20 il ərzində bu rəqəm, 25 minə qədər arta bilər.

Bütün bu yeniliklər, həm də turistləri də cəlb edəcək. Sadə əhali üçün ictimai nəqliyyatdan əlavə, velisoped yollarının salınması uyğun olar, çünki şəhərin sahəsi 46765 $m^2$-dir, yəni sahəcə kiçikdir və burada nəqliyyat vasitəsi kimi, avtobusla yanaşı, velosipedin aktual olması, həm şəhərdə parking və tıxac probleminin yaranmamasına, həm də yerli əhalinin sağlam yaşamasına xidmət edə bilər.

Şuşa şəhərinin tarixi-mədəni abidələri saysızdır və dünyavi əhəmiyyətə malikdir. Bu ərazilərdən düzgün istifadə və quruculuq işləri aparılarsa, mədəniyyətimizi dünyaya çatdıracaq "mədəniyyət paytaxtımızı" yarada bilər, bura gələn turistlərə özümüzü tanıda bilərik. Turistlərin bura marağının yaranması üçün isə, bu ərazilərdə təkcə tarixi obyektləri yox, digər əyləncə sahələrini də inkişaf etdirmək, Şuşanı hərtərəfli bir məkana çevirmək lazımdır ki, turistlərin də bu əraziyə maraqlarını cəlb edək.